**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ 04

**Bakı şəhəri** "16" mart **2019-cu il**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 1-ci hissəsini, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi haqqında Əsasnamə"nin 5.8-ci, 5.10 - 5.14-cü bəndlərini və "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 652 nömrəli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində daxili intizam qaydaları" təsdiq edilsin (*əlavə olunur*).

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının struktur bölmələrinin əsasnamələrinin, habelə strukturuna daxil olan regional bölmələri üçün nümunəvi əsasnamənin təsdiq edilməsi Kollegiyanın növbəti iclasının gündəliyinə salınsın.

**3.** "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının icrası ilə əlaqədar görülmüş işlər barədə məlumat ümumən qənaətbəxş hesab edilsin.

Eyni zamanda, aidiyyəti struktur bölmələrinə tapşırılsın ki, qeyd olunan Fərmanın icrası ilə əlaqədar işləri davam etdirsinlər və hər ayın axırında Azərbaycan Respublikası Prezidenti Administrasiyasına hesabat təqdim etsinlər.

**4.** "Qida təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı 2019-2020-ci illər üzrə perspektiv inkişaf planı" təsdiq edilsin (*əlavə olunur*).

**5.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin 2019-cu il 27 fevral tarixli 02/4-128Çıx-19 nömrəli təqdimat məktubuna əsasən, Agentliyin Mingəçevir regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun baş məsləhətçisi Abbasov Bəhruz Əli oğlunun və 2 saylı Heyvan mənşəli məhsullar üzrə qida təhlükəsizliyinə nəzarət məntəqəsinin baytar həkimi Mustafayev Təhmasib Mətləb oğlunun fəaliyyətlərində korrupsiya hüquqpozmalarına səbəb olan və şərait yarada bilən hallar və digər qanun pozuntuları aşkar edildiyindən, onlarla bağlanılmış əmək müqavilələrinə xitam verilsin.

**6.** Agentliyin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri **İbrahim Babayev** Agentliyin Mingəçevir regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun baş məsləhətçisi Abbasov Bəhruz Əli oğlunun tutduğu vəzifədən azad edilməsi ilə bağlı əmr layihəsinin hazırlanmasını təmin etsin.

**7.** Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin İdarə Heyətinin sədri **Sadiq Məmmədov** bu Qərarın 5-ci bəndindən irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

**8.** Kollegiyanın məsul katibi **Asif Əbdüləzimova** tapşırılsın ki, bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**9.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 2019-cu il 16 mart tarixli iclasının protokolu.

**Kollegiyanın sədri** **Qoşqar Təhməzli**

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının iclasının**

**PROTOKOLU**

**№ 04**

**Bakı şəhəri** **"16" mart 2019-cu il**

**Sədrlik edirdi:** **Qoşqar Təhməzli,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri, Kollegiyanın sədri

**İştirak edirdilər:** **Rüfət Rüstəmzadə,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədrinin müavini, Kollegiyanın üzvü

**Rəşad Mafusov,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədrinin müavini, Kollegiyanın üzvü

**Balarəhim Quliyev,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədrinin müavini, Kollegiyanın üzvü

**Zəkiyyə Mustafayeva,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının rəhbəri, Kollegiyanın üzvü

**Sadiq Məmmədov,** "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri, Kollegiyanın üzvü

**Əkbər Əliyev,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Bakı Regional Bölməsinin rəisi, Kollegiyanın üzvü

**Nizami Zeynalov,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin müdiri, Kollegiyanın üzvü

**İbrahim Babayev,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri, Kollegiyanın üzvü

**Asif Əbdüləzimov,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin Kargüzarlıq sektorunun müdiri, Kollegiyanın məsul katibi

**Dəvət olunanlar:** **Mansur Piriyev,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri

**Sənan Əsgərli,** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Daxili nəzarət sektorunun müdiri

**G Ü N D Ə L İ K**

**1.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində daxili intizam qaydalarının təsdiq edilməsi;

*Məruzəçi: Sənan Əsgərli.*

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının struktur bölmələrinin əsasnamələrinin, habelə strukturuna daxil olan regional bölmələri üçün nümunəvi əsasnamənin təsdiq edilməsi;

*Məruzəçi: İbrahim Babayev.*

**3.** "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının icrası ilə əlaqədar görülmüş işlər barədə;

*Məruzəçi: Asif Əbdüləzimov.*

**4.** Qida təhlükəsizliyi ilə əlaqədar əhalinin maarifləndirilməsi sahəsində görülən işlərin təhlili və 2019-2020-ci illər üzrə perspektiv inkişaf planının təsdiq edilməsi;

*Məruzəçi: Mansur Piriyev.*

**5.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin 2019-cu il 27 fevral tarixli 02/4-128Çıx-19 nömrəli təqdimatına əsasən, Agentliyin Mingəçevir regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun baş məsləhətçisi Abbasov Bəhruz Əli oğlunun və Qida Təhlükəsizliyinə Nəzarət Məntəqəsinin baytar həkimi Mustafayev Təhmasib Mətləb oğlunun fəaliyyətlərində korrupsiya hüquqpozmalarına səbəb olan və şərait yarada bilən hallar və digər qanun pozuntuları aşkar edildiyindən onların "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə intizam məsuliyyətinə cəlb olunması ilə bağlı məsələnin müzakirəsi.

*Məruzəçi: Sənan Əsgərli.*

Kollegiya iclası başlamazdan öncə Kollegiyanın sədri cənab Qoşqar Təhməzli Agentliyin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri vəzifəsinə yeni təyin edilmiş İbrahim Babayevi təbrik edərək, ona fəaliyyətində uğurlar arzuladı.

Həmçinin bildirirldi ki, Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi Agentliyin sədrinin 2019-cu il 28 fevral tarixli Ü/016 nömrəli əmri ilə ləğv edildiyindən və onun funksiyaları yeni yaradılmış Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin Sertifikatlaşdırma və idxal-ixraca nəzarət sektoruna verildiyindən, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 noyabr tarixli 652 nömrəli Sərəncamı ilə Agentliyin Kollegiyasının tərkibinə daxil edilmiş sözügedən struktur bölməsi Kollegiya iclasında təmsil olunmur.

Kollegiyanın məsul katibi Asif Əbdüləzimov iclas iştirakçılarına iclasın gündəliyi barədə məlumat verdikdən sonra, Kollegiya sədrinin razılığı ilə çıxış üçün söz Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının Daxili nəzarət sektorunun müdiri Sənan Əsgərliyə verildi.

S. Əsgərli bildirdi ki, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində daxili intizam qaydaları"nın layihəsi Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa, qüvvədə olan digər normativ hüquqi aktlara uyğun olaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatında, strukturuna daxil olan regional bölmələrində və strukturuna daxil olmayan tabeli qurumlarında çalışan işçilərlə bağlanmış əmək müqavilələri üzrə öhdəliklərin yerinə yetirilməsi və onlara nəzarətin həyata keçirilməsi, habelə əmək intizamının təmin olunması məsələlərinin tənzimlənməsi məqsədi ilə hazırlanmışdır.

Layihədə işçilərin iş və istirahət vaxtı, onlar üçün əmək şəraitinin təmin edilməsi, əmək və icra intizamının, habelə əmək vəzifələrinin yüksək səviyyədə yerinə yetirilməsinə görə fərdi və kollektiv mükafatlandırılmanın şərtləri və qaydası, əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti kimi məsələlər öz əksini tapmışdır.

S. Əsgərli bildirdi ki, layihə işçi qaydada Agentliyin Aparatının struktur bölmələrinə təqdim edilmiş, onların da rəy və təklifləri nəzərə alınmışdır.

Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri İbrahim Babayev layihəni, ümumilikdə, məqbul hesab etdiyini, lakin bəzi qrammatik-üslubi düzəlişlərə ehtiyac olduğunu bildirdi.

Kollegiya üzvləri İ. Babayevin qeydləri nəzərə alınmaqla, layihə ilə razılaşdıqlarını bildirdilər.

Kollegiya iclasının gündəliyindəki növbəti məsələ - Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının struktur bölmələrinin əsasnamələrinin, habelə strukturuna daxil olan regional bölmələri üçün nümunəvi əsasnamənin təsdiq edilməsi barədə məruzə edən İ. Babayev Agentliyin

sədrinin 2019-cu il 28 fevral tarixli Ü/016 nömrəli əmri ilə Agentliyin Aparatında müvafiq struktur dəyişikliklərinin aparıldığını, habelə özünün işə yeni başladığını, sözügedən sənəd layihələri ilə yaxından tanış ola bilmədiyini əsas gətirərək, Kollegiya sədrindən və üzvlərindən həmin sənəd layihələrinin növbəti Kollegiya iclasında təsdiq olunmasını xahiş etdi.

Kollegiya sədrinin və üzvlərinin razılığı ilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının struktur bölmələrinin əsasnamələrinin, habelə strukturuna daxil olan regional bölmələri üçün nümunəvi əsasnamənin təsdiq edilməsi növbəti Kollegiya iclasına qədər təxirə salındı.

Sonra Kollegiyanın məsul katibi Asif Əbdülezimov "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının icrası ilə əlaqədar görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, sözügedən Fərmanın 5-ci hissəsi, yəni Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycan Respublikasının digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərinin yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi ilə bağlı tapşırıq tam icra olunmuş və bu barədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin 2019-cu il 12 mart tarixli 1/12-617 nömrəli məktubu ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevə ətraflı məlumat təqdim edilmişdir.

Qeyd olunan məktubda göstərilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan və Agentliyin fəaliyyət istiqamətlərinə aid edilən dövlət xidmətləri ilə, o cümlədən qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və müvafiq dövlət reyestrindən çıxarışın verilməsi, qeydiyyata alınmış subyektlərin reyestr məlumatlarında dəyişiklik edilməsi, qida təhlükəsizliyi sertifikatının verilməsi və Avropa İttifaqının yeyinti məhsullarının idxalı ilə bağlı tələblərinin icrasını təmin etmək məqsədilə həmin ölkələrə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə müvafiq sənədlərin (məlumatların) verilməsi ilə bağlı müraciətlər hazırda ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən 11 "ASAN xidmət" mərkəzində, "ASAN xidmət" mərkəzlərinin olmadığı ərazilərdə isə Agentliyin strukturuna daxil olan regional bölmələrində qəbul və icra olunur.

Fərmanın 9-cu hissəsinin, yəni Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin,

Qida Təhlükəsizliyi Agentliyinin, Milli Arxiv İdarəsinin və Dövlət İmtahan Mərkəzinin həmin Fərmana əsasən ləğv olunan dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görməsi ilə bağlı tapşırığın icrası barədə bildirilib ki, Fərmanda Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə bağlı hər hansı bir ixtisar nəzərdə tutulmamışdır. Lakin ləğv olunan qurumlarla, o cümlədən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi və Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti, habelə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi ilə bilavasitə əlaqədar dövlət orqanlarından - Azərbaycan Respublikasının Maliyyə və Gənclər və İdman nazirliklərindən, həmçinin Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzindən müvafiq müraciətlər daxil olduqda, məsələyə qanunvericilik çərçivəsində baxılacaqdır.

Kollegiyanın məsul katibi bildirdi ki, sözügedən Fərmanın 5-ci və 9-cu hissələri ilə Agentliyə birbaşa tapşırıqlar verilmişdir. Lakin Fərmanın 8.4-cü bəndinin və 12-ci hissəsinin də dolayısı ilə Agentliyə aidiyyəti vardır. Belə ki, Fərmanın 8.4-cü bəndi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır ki, həmin Fərmanın 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin və Milli Arxiv İdarəsinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərini bilavasitə icra edən bölmələrinin ştat vahidlərinin ümumi say həddi daxilində həmin dövlət orqanlarının işçilərinin ümumi say həddinin azaldılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Bununla əlaqədar, Agentliyin 2019-cu il 19 fevral tarixli 1/12-411 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Baş naziri cənab Novruz Məmmədova müraciət edilmiş və bildirilmişdir ki, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin

2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının Agentliyin fəaliyyət istiqamətləri üzrə 5.17.1-ci, 5.17.2-ci, 5.17.3-cü və 5.17.9-cu yarımbəndlərində qeyd olunmuş dövlət xidmətləri ilə bağlı müraciətlərin qəbulu müvafiq 11 "ASAN xidmət" mərkəzində, həmçinin Agentliyin 49-u rayon və 9-u respublika tabeli şəhər olmaqla, ümumilikdə, 58 inzibati ərazi vahidini əhatə edən 11 regional bölməsində həyata keçirilir. Həmin 58 inzibati ərazi vahidinin hər birində Agentliyin vəzifələrinin həyata keçirilməsi üçün lazım olan maddi-texniki baza yaradılmış və zəruri kadr potensialı formalaşdırılmışdır.

Məktubda qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təqdim edilən məlumatlara əsasən, ölkədə 47229 vergi ödəyicisi qida məhsulları sahəsində fəaliyyət göstərir. Bildirilir ki, sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması ilə bağlı qeydiyyat proseduru Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"na uyğun aparılır.

Qeydiyyat müraciət edən subyektin təsərrüfat obyektinin qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sahəsində qüvvədə olan texniki normativ sənədlərin tələblərinə uyğunluğu qiymətləndirilməklə aparılır.

Bundan başqa, qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin inzibati ərazi vahidləri üzrə yerləşmə coğrafiyasının kifayət qədər geniş olmasına baxmayaraq, ölkə ərazisində faktiki olaraq 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə nəzərdə tutulmuş dövlət xidmətləri o halda yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilir ki, xidmətin göstərildiyi inzibati ərazi vahidində "ASAN xidmət" mərkəzi fəaliyyət göstərmiş olsun.

Qeyd edilən xidmətlər üzrə müraciətlərin qəbulu müxtəlif ünvanlarda həyata keçirilsə də, müraciətlərin icrası, idarə edilməsi, qida təhlükəsizliyi dövlət reyestrinin tərtibi və icrasına nəzarət müvafiq olaraq regional bölmələrdə və Agentliyin Aparatında həyata keçirilir. Bu isə Fərmanın tam şəkildə icrasında müəyyən çətinliklər və əlavə administrativ xərclər yaradır. Belə ki, ölkə üzrə fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərinin sayının məhdud olması, eləcə də yerləşdiyi inzibati ərazi vahidlərinin Agentliyin regional bölmələri ilə fərqli olması müraciətlər üzrə sənəd dövriyyəsi işinin səmərəsiz təşkilinə səbəb ola, habelə icra sahəsində operativliyə mənfi təsir göstərə bilər.

Bununla əlaqədar olaraq, yuxarıda qeyd edilən məsələlər sözügedən əməliyyatların hər iki qurum arasında əlaqələndirilməsini, elektron sənəd dövriyyəsinin təşkilini, lisenziya və xüsusi icazə tipli sənədlərin elektronlaşdırılmasını labüd edir. Bu kimi tədbirlərin tətbiqi isə müəyyən vaxt tələb edir.

Bununla yanaşı, Azərbaycanda qida sahəsində idxal-ixrac əməliyyatlarının, xüsusi ilə ixrac əməliyyatlarının böyük bir qismi sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə, o cümlədən Balakən, Zaqatala, Qax, Xaçmaz, Qusar, Şəmkir, Tovuz, Biləsuvar, Astara və başqa rayonlarda həyata keçirildiyindən sözügedən əməliyyatların operativ və maneəsiz şəkildə aparılması vacibdir. Fərmanın icrası ilə bu əməliyyatların müraciət və icra hissəsi fərqli ünvanlarda icra ediləcəkdir.

Qeyd olunanlar, habelə "ASAN xidmət" mərkəzlərinin yuxarıda sadalanan inzibati ərazi vahidlərindən kənarda yerləşməsi, eyni zamanda, qida məhsullarının saxlanma müddətlərinin qısa olması və sənədləşməyə tələb olunan vaxt nəzərə alınaraq, ölkə iqtisadiyyatına əhəmiyyətli töhfə verən qida məhsullarının idxal və ixrac əməliyyatlarının səmərəliliyinin və operativliyinin təmin edilməsi baxımından qida təhlükəsizliyi ilə bağlı müvafiq müraciətlərin "ASAN xidmət" mərkəzləri ilə yanaşı, Agentliyin müvafiq regional bölmələri vasitəsilə həyata keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir.

Məktubda məlumat üçün o da göstərilmişdir ki, hazırda Agentlik tərəfindən göstərilən xidmətlər üçün müraciətlər Agentliyə (regional bölmələr vasitəsi ilə) və ya "İnnovasiyalar Mərkəzi" MMC ilə Agentlik arasında bağlanmış 2018-ci il 1 iyun tarixli FYX 18/06/01 nömrəli müqaviləyə əsasən, Agentliyin "ASAN xidmət" mərkəzlərində, kiçik və orta biznes evlərində və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyət göstərən nümayəndəsinə edilir və qeyd olunan müqaviləyə əsasən, "ASAN xidmət" mərkəzlərinə müvafiq icarə haqqı ödənilir.

Bununla əlaqədar, Fərmanın 8.4-cü bəndinin icrası ilə bağlı Agentlik tərəfindən "ASAN xidmət" mərkəzlərinə ezam edilmiş əməkdaşların ştat vahidlərinin ixtisar olunaraq "ASAN xidmət" mərkəzlərinə verilməsi və icarə müqaviləsinin məbləğinin həmin ştat vahidlərinin əmək haqqı fondu həddində artırılması yolu ilə "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərəcək işçilərin əmək haqqı xərclərinin ödənilməsinin təmin edilməsi təklif olunmuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyin qeyd olunan təklifinə münasibət bildirildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərini bilavasitə icra edən bölmələrinin ştat vahidlərinin ümumi say həddi daxilində Agentlik işçilərinin ümumi say həddinin araşdırılıb azaldılması məsələsinə baxılacaqdır.

Kollegiyanın məsul katibi Fərmanın 12-ci hissəsi, yəni mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyasının və ekspertizasının həyata keçirilməsi, bu sahədə idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılması, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarının elektron informasiya sistemlərinin fəaliyyətinin mərkəzləşdirilmiş qaydada Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin DATA mərkəzi vasitəsilə

həyata keçirilməsinə dair tapşırıqdan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq şəraitin yaradılmasının və kömək göstərilməsinin təmin edilməsi ilə əlaqədar bildirdi ki, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Agentliyə ünvanladığı 2019-cu il 26 fevral tarixli 1-1-110/1365-19 nömrəli məktubla Fərmanın 11.1-ci bəndində Nazirliyə mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyasının və ekspertizasının həyata keçirilməsinin, bu sahədə idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılmasının, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarının elektron informasiya sistemlərinin fəaliyyətinin mərkəzləşdirilmiş qaydada Nazirliyin DATA mərkəzi vasitəsilə həyata keçirilməsinin tapşırıldığını, bununla əlaqədar Nazirlikdə komissiya yaradıldığını, mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyası və ekspertizası ilə bağlı sorğu və onun cavablandırılmasına dair təlimat hazırlandığını göstərmiş, tapşırığın vaxtında və effektiv icrasının təmin edilməsi məqsədilə məsul şəxsin ayrılmasını, informasiya sistemlərinin yerində inventarizasiyasının və ekspertizasının aparılmasına, eləcə də rəhbərlik səviyyəsində görüşlərin keçirilməsinə müvafiq şəraitin yaradılmasını xahiş etmişdir.

Müraciət hazırda Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsinin icraatındadır və Fərmanın 12-ci hissəsinin icrası olaraq, həmin Fərmanın 11.1-ci bəndindən irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq şəraitin yaradılması və kömək göstərilməsi təmin ediləcəkdir.

Kollegiya iclasının gündəliyindəki növbəti məsələ - qida təhlükəsizliyi ilə əlaqədar əhalinin maarifləndirilməsi sahəsində görülən işlərin təhlili və 2019-2020-ci illər üzrə perspektiv inkişaf planının təsdiq edilməsi barədə Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri Mansur Piriyev məruzə etdi.

M. Piriyev bildirdi ki, qida təhlükəsizliyi ilə əlaqədar əhalinin maarifləndirilməsi sahəsində fəaliyyətimiz, əsasən, Agentliyin rəsmi internet səhifəsi (afsa.gov.az), sosial media resursları (facebook, instagram və b.) və kütləvi informasiya vasitələri (o cümlədən TV-lər) vasitəsilə həyata keçirilir. Bundan başqa, "Sağlam məktəbli", "1 bağça, 1 məktəb, 1 universitet" layihələri, KİV əməkdaşları üçün media-tur və təlimlər çərçivəsində müxtəlif əhali qruplarının qida təhlükəsizliyi ilə əlaqədar maarifləndirməsi işləri aparılır.

Qeyd olunan layihələr çərçivəsində 2018-ci ildə Bakı şəhərində fəaliyyət göstərən 10 orta məktəb, 2 bağça və 1 universitetdə müvafiq tədbirlərin keçirildiyini və maarifləndirmə işlərinin aparıldığını deyən məruzəçi həmin tədbirlərə 3000-dən artıq şagird, tələbə və müəllimin cəlb olunduğunu əlavə etdi.

Cari ilin ilk ayları ərzində Bakı şəhərində 6 orta məktəbdə və bir Sosial sığınacaq və reabilitasiya mərkəzində, habelə Gəncə, Şəki, Balakən, Ucar, Xaçmaz, Bərdə, Mingəçevir, Şamaxı, Qazax, Ağstafa və digər rayon və şəhərlərimizdə 27 oxşar tədbirin keçirildiyini deyən M. Piriyev "Sağlam məktəbli" layihəsi çərçivəsində cari ildə Bakı şəhərində 20, regionlarda isə ümumilikdə 60-dan artıq məktəbdə maarifləndirmə tədbirinin keçiriləcəyini bildirdi.

M. Piriyev əhalinin maarifləndirilməsi işində KİV əməkdaşlarının mühüm rol oynadığını qeyd edərək, onların özlərinin qida təhlükəsizliyi ilə əlaqədar biliklərinin artırılması, məlumatlılığının genişləndirilməsi üçün media-tur və təlimlərin keçirilməsinin vacibliyini vurğuladı. O, bildirdi ki, bu məqsədlə KİV nümayəndələrin Agentliyin ölkənin müxtəliv regionlarında fəaliyyət göstərən sınaq laboratoriyalarına səfərləri təşkil olunmuş, onlara həmin laboratoriyaların iş prinsipləri haqqında ətraflı məlumatlar verilmişdir. Səfər zamanı jurnalistlər qida məhsullarından nümunələrin götürülməsi və ekspertizasının aparılması ilə əyani tanış olmaq imkanı əldə etmişdirlər.

Məruzəçi Agentliyin Facebook, İnstagram, Youtube, Twitter, LinkedİN sosial hesabları vasitəsilə də geniş maarifləndirmə işlərinin aparıldığını, həmin hesablarda müxtəlif məzmunlu məqalələrin paylaşıldığını, Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı sorğuların cavablandırıldığını bildirdi, "Sağlam qida", "Təhlükəsiz qida ilə sağlam gələcəyə" adlı sosial səhifələr vasitəsi ilə izləyicilərin sağlam, düzgün qidalanmaya təşviq edildiyini, "Sağlam məktəbli" səhifəsi vasitəsi ilə eyni adlı layihə çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat və şəkillərin paylaşıldığını qeyd etdi.

M. Piriyev Agentliyin rəsmi internet səhifəsi – afsa.gov.az vasitəsi ilə Agentliyin, o cümlədən Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanmış 40-a yaxın elmi-kütləvi məqalənin paylaşıldığını, həmin məqalələrin, xüsusən gündəlik istifadə olunan qida məhsulları ilə bağlı məlumat xarakterli yazıların vətəndaşlar tərəfindən maraqla qarşılandığını söylədi.

"Süd və süd məhsulları", "Enerji içkiləri", "Konservləşdirilmiş qidalar", "Bakteriya mənşəli qida zəhərlənmələri", "Etiket qaydaları" və b. adlı buklet və broşürlərin hazırlanaraq, müvafiq tədbirlərdə müxtəlif əhali qruplarına paylanıldığını diqqətə çatdıran M. Piriyev daha sonra "Qida təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı 2019-2020-ci illər üzrə perspektiv inkişaf planı"nın layihəsi barədə məlumat verdi.

Bildirdi ki, layihədə, ümumilikdə, 17 istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur ki, bunlardan Agentliyin mətbuat və ictimaiyyətlə əlaqələr sahəsində operativ, şəffaf, etibarlı və innovativ əsaslarla qarşılıqlı fəaliyyətinin təmin edilməsini, bu sahədə həyata keçirilən dövlət siyasətinin təbliği və əhalinin qida təhlükəsizliyi sahəsində məlumatlılığının artırılmasını, bununla əlaqədar press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışlar və s. hazırlanmasını, qida təhlükəsizliyi üzrə qüvvədə olan normativ hüquqi aktlar və qanunvericilik bazasının

təkmilləşdirilməsi ilə bağlı əhalinin mütəmadi olaraq məlumatlandırmasını, internet resursları və sosial şəbəkələrin imkanlarından istifadə edərək innovativ metodlarla müxtəlif auditoriyalara müraciətlərin edilməsini, sosial şəbəkə istifadəçilərinin kütləvi şəkildə təbliğat və maarifləndirmə işlərinə cəlb edilməsini, ölkədə sağlam qida mühitinin təşviqi ilə bağlı həyata keçirilən maarifləndirimə tədbirlərinə istehlakçılarla yanaşı sahibkarların da cəlb edilməsini, təhlükəsiz qidalanmanın təbliği və Agentlik tərəfindən həyata keçirilən tədbirlərin geniş ictimaiyyətə çatdırılması məqsədi ilə hazırlanan həftəlik "Qida bələdçisi" verilişi ilə yanaşı, ictimai nəzarət mexanizmlərini gücləndirmək üçün "Real TV"-nin efirində "Real"da qida" proqramının hazırlanmasını, əhalinin qida təhlükəsizliyi sahəsində maarifləndirilməsi istiqamətində müxtəlif buklet, broşür və s. hazırlanması ilə yanaşı, "Tarladan süfrəyə" adlı elmi-kütləvi jurnalın nəşr edilməsini və s. xüsusi qeyd etmək olar.

Layihə Kollegiya üzvləri tərəfindən təqdir edildi.

Kollegiyanın sədri cənab Qoşqar Təhməzli qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi işinə müxtəlif peşə sahiblərinin, yaradıcı insanların cəlb olunmasının effektiv nəticə verə biləcəyini vurğulayaraq, bununla əlaqədar müvafiq layihələrin hazırlanmasını, xüsusən uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulan maarifləndirmə tədbirlərinə ölkənin tanınmış yaradıcı insanlarının dəvət olunmasını, maarifləndirmə ilə bağlı yeni, daha effektiv forma və metodların müəyyən edilməsini, mütəxəssislərin KİV vasitəsilə mütəmadi çıxışlar etməsini tapşırdı.

Kollegiya sədri qeyd etdi ki, qida təhlükəsizliyi ilə bağlı maarifləndirmə əhalinin bütün təbəqələrini əhatə etməlidir: "Xüsusən sahibkarların maarifləndirilməsinə böyük ehtiyac vardır. Qida zəncirinin mərhələlərində iştirak edən hər bir sahibkar bilməlidir ki, ölkədə qida təhlükəsizliyinə tam nail olunmasında onun da bilavasitə rolu vardır. İstehsal edən də, emal edən də, daşıyan da, saxlayan da, satan da qida təhlükəsizliyi sisteminin iştirakçısı olduğunu birmənalı şəkildə bilməli və buna görə məsuliyyət daşımalıdır. Eyni zamanda, istehlakçılar fəal olmalı, vətəndaş mövqeyi sərgiləməli, qarşılaşdıqları neqativ hallara qarşı çıxmaqdan çəkinməməlidirlər. Sahibkar – istehlakçı münasibətlərinin qarşılıqlı anlaşma üzərində qurulması, davam və inkişaf etdirilməsi həm də qanunçuluğun, qida təhlükəsizliyi standartlarına uyğunluğun bərqərar olması deməkdir".

Kollegiya sədri daha sonra qida təhlükəsizliyi sahəsində həyata keçirilmiş maarifləndirmə işlərini təqdir edərək, aidiyyəti struktur bölmə rəhbərlərinə və əməkdaşlarına təşəkkürünü bildirdi.

Kollegiya iclasının gündəliyindəki sonuncu - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin 2019-cu il 27 fevral tarixli 02/4-128Çıx-19 nömrəli təqdimat məktubuna əsasən, Agentliyin Mingəçevir regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun baş məsləhətçisi Abbasov Bəhruz Əli oğlunun və 2 saylı Heyvan mənşəli məhsullar üzrə qida təhlükəsizliyinə nəzarət məntəqəsinin baytar həkimi Mustafayev

Təhmasib Mətləb oğlunun fəaliyyətlərində korrupsiya hüquqpozmalarına səbəb olan və şərait yarada bilən hallar və digər qanun pozuntuları aşkar edildiyindən onların "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə intizam məsuliyyətinə cəlb olunması ilə bağlı məsələ barədə Agentliyin Aparatının Daxili nəzarət sektorunun müdiri Sənan Əsgərli məruzə edərək, Agentlik əməkdaşları tərəfindən yol verilmiş qanun pozuntularına görə onların intizam məsuliyyətinə cəlb olunmalarını, başqa sözlə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) və 72-ci maddəsinin "e" bəndinə (əmək fəaliyyəti zamanı yol verdiyi kobud səhvləri, hüquq pozuntuları nəticəsində işəgötürənin, müəssisənin və ya mülkiyyətçinin qanuni mənafeyinə ciddi xələl gətirməsi) əsasən, onlarla bağlanılmış əmək müqavilələrinə birtərəfli qaydada xitam verilməsini təklif etdi.

Kollegiya iclasının sonunda Kollegiya üzvlərinin yekdil rəyi ilə

**QƏRARA ALINDI:**

**1.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində daxili intizam qaydaları" təsdiq edilsin (*əlavə olunur*).

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatının struktur bölmələrinin əsasnamələrinin, habelə strukturuna daxil olan regional bölmələri üçün nümunəvi əsasnamənin təsdiq edilməsi Kollegiyanın növbəti iclasının gündəliyinə salınsın.

**3.** "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının icrası ilə əlaqədar görülmüş işlər barədə məlumat ümumən qənaətbəxş hesab edilsin. Eyni zamanda, aidiyyəti struktur bölmələrinə tapşırılsın ki, qeyd olunan Fərmanın icrası ilə əlaqədar işləri davam etdirsinlər və hər ayın axırında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına hesabat təqdim etsinlər.

**4.** "Qida təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı 2019-2020-ci illər üzrə perspektiv inkişaf planı" təsdiq edilsin (*əlavə olunur*).

**5.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin 2019-cu il 27 fevral tarixli 02/4-128Çıx-19 nömrəli təqdimat məktubuna əsasən, Agentliyin Mingəçevir regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun baş məsləhətçisi Abbasov Bəhruz Əli oğlunun və 2 saylı Heyvan mənşəli məhsullar üzrə qida təhlükəsizliyinə nəzarət məntəqəsinin baytar həkimi Mustafayev Təhmasib

Mətləb oğlunun fəaliyyətlərində korrupsiya hüquqpozmalarına səbəb olan və şərait yarada bilən hallar və digər qanun pozuntuları aşkar edildiyindən, onlarla bağlanılmış əmək müqavilələrinə birtərəfli qaydada xitam verilsin.

*Azərbaycan Respublikasının*
*Qida Təhlükəsizliyi Agentliyinin*
*Kollegiyasının* 16 mart
*2019-cu il tarixli* 04 *nömrəli Qərarı ilə*
*təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində**

# DAXİLİ İNTİZAM QAYDALARI

## I. Ümumi müddəalar

**1.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sistemində daxili intizam qaydaları" (*bundan sonra – Qaydalar*) Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa, qüvvədə olan digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatında, strukturuna daxil olan regional bölmələrdə və strukturuna daxil olmayan tabeli qurumlarda (*bundan sonra – Agentlik sistemi*) çalışan işçilərlə bağlanmış əmək müqavilələri üzrə öhdəliklərin yerinə yetirilməsi, əmək qanunvericiliyinin tələblərinə riayət edilməsi, əmək intizamının təmin olunması və sadalanan sahələr üzrə nəzarətin həyata keçirilməsi məsələlərini tənzimləyir.

**2.** Bu Qaydalara ciddi riayət edilməsi Agentlik sistemində çalışan bütün işçilər üçün məcburidir.

**3.** Bu Qaydalara riayət olunmasına nəzarət Aparat rəhbəri, habelə şöbə və sektorların, regional bölmələrin və tabeli qurumların rəhbərləri tərəfindən həyata keçirilir.

## II. İş vaxtı

**4.** Bir qayda olaraq, Agentlikdə beşgünlük iş həftəsi tətbiq edilir. Hər iş günü bir növbədən ibarətdir. Həftəlik iş vaxtı norması 40 saat, gündəlik iş vaxtı norması 8 saatdır.

**5.** İş vaxtı hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat 9:00-da başlayır və 18:00-da başa çatır.

**6.** İşçilərin işə davamiyyətinə nəzarət etmək, hər bir işçinin iş vaxtının dəqiq və dürüst uçotunu aparmaq məqsədilə Agentliyin aparatında elektron qeydiyyat sistemi və ya davamiyyət jurnalı, regional bölmələrdə və tabeli qurumlarda isə işə davamiyyət jurnalı tətbiq edilir. Elektron qeydiyyat sistemini Aparatın Daxili nəzarət sektorunun müdiri yoxlayır və yoxlama nəticəsində intizam pozuntusuna dair faktlar barəsində məlumatları Aparatın rəhbərinə təqdim edir. Regional bölmələrdə və tabeli qurumlarda tərtib edilən davamiyyət jurnalları bölmə rəisinin otağında saxlanılmaqla hər gün işçilər həmin jurnalda imza etməklə işə gəlmələri haqqında müvafiq qeydlər aparırlar.

**7.** İşçilərin işə vaxtında gəlib-getməsinə nəzarət etmək məqsədilə hər gün saat 09:10-dan 09:30-dək elektron qeydiyyat sistemi və işə davamiyyət jurnalları üzrə işə gecikənlərin və işə gəlməyənlərin siyahısı tərtib olunaraq aidiyyəti qaydada rəhbərliyə təqdim edilir.

**8.** İşçilərin işə davamiyyətinin, işə vaxtında gəlib-getməsinin, iş vaxtı ərzində öz iş yerlərini tərk etməsinin yoxlanılmasının nəticələri barədə məlumatlar ümumiləşdirilərək Agentliyin rəhbərliyinə təqdim edilir və həmin məlumatlar əsasında işçilər barəsində müvafiq tədbirlər tətbiq edilir.

## III. İstirahət vaxtı

**9.** İstirahət vaxtı iş günü ərzində işçilərə istirahət və nahar etmək üçün verilən fasilələrdən, həftələrarası fasiləsiz istirahət günlərindən, habelə işçilərə verilən məzuniyyətlərdən ibarətdir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105, 105-1 və 106-cı maddələrində göstərilən bayram günləri, səsvermə günü və ümumxalq hüzn günü iş günləri hesab olunmur.

**10.** İş günü ərzində işçilərə istirahət və nahar etmək üçün verilən fasilə vaxtı saat 13:00-dan başlayır və 14:00-da başa çatır.

**11.** Həftələrarası istirahət günləri həftənin şənbə və bazar günləri hesab olunur.

**12.** İşçilərin məzuniyyət cədvəli qanunvericiliyin müddəaları nəzərə alınmaqla və Agentliyin iş ahənginə zərər vurmamaq şərtilə aidiyyəti struktur bölmə tərəfindən hazırlanıb rəhbərliyə təqdim olunur. Agentlik sistemi üzrə əmək məzuniyyətlərinin verilməsi üçün növbəlilik cədvəli hər il yanvarın sonunadək tərtib edilir.

## IV. Əmək şəraitinin təmin edilməsi

**13.** Agentlik sistemində işçilərin əmək şəraiti qüvvədə olan əməyin mühafizəsi normalarına uyğun olaraq təşkil edilir.

**14.** Əmək şəraitinin qüvvədə olan əməyin mühafizəsi normalarına uyğun olaraq təşkil edilməsi ilə bağlı tədbirlər Hüquq, kadr və icraya nəzarət şöbəsi tərəfindən həyata keçirilir.

**15.** Agentliyin Aparatının struktur bölmələrinin, regional bölmələrin və tabeli qurumların rəhbərləri əmək şəraitinin təmin edilməsi ilə bağlı Hüquq, kadr və icraya nəzarət şöbəsinə müvafiq qaydada müraciət edə bilərlər.

## V. Əmək və icra intizamının, əmək vəzifələrinin yüksək səviyyədə yerinə yetirilməsinə görə işçilərin, əmək kollektivinin mükafatlandırılması şərtləri və qaydası

**16.** İşçi əmək və icra intizamını, əmək vəzifələrini yüksək səviyyədə yerinə yetirdikdə qanunvericiliyə və bu Qaydalara müvafiq mükafatlandırılır. İşçinin mükafatlandırılması barədə təqdimat onun işlədiyi struktur bölməsinin rəhbəri tərəfindən Agentlik rəhbərliyinə verilir.

**17.** İşçilərin mükafatlandırılması qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəllәsinin 185-ci maddəsinə əsasən, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər işəgötürən tərəfindən pul və ya qiymətli əşyalar hədiyyə edilməklə, əlavə məzuniyyət verilməklə, əmək haqqına fərdi əlavə edilməklə, daha yüksək məbləğdə fərdi sığorta edilməklə, sanatoriya-kurort müalicəsi, turist səfərləri yollayışının haqqı ödənilməklə, müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim olunmaq barədə vəsatət qaldırmaqla və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırıla bilərlər.

Agentlikdə çalışan dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli, 774 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə" ilə müəyyən edilir.

## VI. Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti

**18.** Əmək və icra intizamının pozulmasına görə işçinin intizam məsuliyyətinə cəlb olunması barədə təqdimat onun işlədiyi struktur bölməsinin rəhbəri və Aparatın rəhbəri tərəfindən Agentlik rəhbərliyinə verilir.

**19.** Agentlik Aparatının struktur bölmələrinin, regional bölmələrin və tabeli qurumların rəhbərləri tabeliklərində çalışan işçilər arasında onların iş günü ərzində işlə təmin olunmasına imkan verə biləcək dərəcədə iş bölgüsünün aparılmasını təmin etməlidirlər və bu vəzifənin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə məsuliyyət daşıyırlar.

**20.** İşçinin intizam məsuliyyətinə cəlb olunması qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinə əsasən, işçi əmək funksiyasını tam və ya qismən yerinə yetirmədikdə, yaxud keyfiyyətsiz yerinə yetirdikdə, həmçinin əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifələrini, müəssisədaxili intizam qaydalarını pozduqda işəgötürən ona aşağıdakı intizam tənbehlərindən birini verə bilər:

a) töhmət vermək;

b) sonuncu xəbərdarlıqla şiddətli töhmət vermək;

c) kollektiv müqavilələrdə nəzərdə tutulmuşdursa, aylıq əmək haqqının 1/4-i məbləğindən çox olmamaq şərtilə cərimə etmək;

ç) əmək müqaviləsini Əmək Məcəlləsinin 70-ci maddəsinin «ç» bəndi (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) ilə ləğv etmək.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə əsasən, Agentlikdə çalışan dövlət qulluqçusu barəsində töhmət, bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması, həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi, daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi, ixtisas dərəcəsinin bir pillə aşağı salınması və dövlət qulluğundan azad edilməsi kimi intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər.

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**Qida təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı**

**2019-2020-ci illər üzrə perspektiv inkişaf**

**PLANI**

**İcraçı:** İnformasiya təminatı və innovativ həllər şöbəsi

**Qida təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı**

**2019-2020-ci illər üzrə perspektiv inkişaf**

**PLANI**

| S/S | Tədbirin adı | İcra müddəti |
|---|---|---|
| 1. | Qida Təhlükəsizliyi Agentliyinin mətbuat və ictimaiyyətlə əlaqələr sahəsində operativ, şəffəf, etibarlı və innovativ əsaslarla qarşılıqlı fəaliyyətini təmin etmək, bu sahədə həyata keçirilən dövlət siyasətinin təbliği və əhalinin qida təhlükəsizliyi sahəsində məlumatlılığının artırılması, bununla əlaqədar press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışlar və s. hazırlanması | Mütəmadi olaraq |
| 2. | Qida təhlükəsizliyi üzrə qüvvədə olan normativ aktlar və qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı əhalinin mütəmadi olaraq məlumatlandırması | Mütəmadi olaraq |
| 3. | Qida təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirləri haqqında ictimaiyyətin müntəzəm məlumatlandırılması, bu istiqamətdə operativ və şəffaf informasiya mühitinin inkişaf etdirilməsi | Mütəmadi olaraq |
| 4. | İnternet resursları və sosial şəbəkələrin imkanlarından istifadə edərək innovativ metodlarla müxtəlif auditoriya qruplarına xitab edilməsi, sosial şəbəkə istifadəçilərini kütləvi şəkildə təbliğat və maarifləndirmə işlərinə cəlb edilməsi | Mütəmadi olaraq |
| 5. | Qida təhlükəsizliyinin təmin olunması prosesində vətəndaşların iştirakını təmin etməklə ictimai nəzarət mexanizmlərin daha da gücləndirməsi, təhlükəsiz qida mühitinin formalaşdırılmasında ictimai-fəal vətəndaş mövqeyinin təsir imkanlarının artırılması və neqativ halların qarşısının alınmasında ictimai qınağın təsir imkanlarının genişləndirilməsi | Mütəmadi olaraq |

| | | |
|---|---|---|
| | | |
| **6.** | Qida təhlükəsizliyi sahəsində maarifləndirmə tədbirlərinin miqyasının genişləndirməsi, təbliğat xarakterli çap materiallarının (buklet, broşür, reflet, flayer və s.) nəşri | Mütəmadi olaraq |
| **7.** | Ölkədə sağlam qida mühitinin təşviqi ilə bağlı həyata keçirilən maarifləndirimə tədbirlərinə istehlakçılarla yanaşı sahibkarların cəlb edilməsi | Mütəmadi olaraq |
| **8.** | KİV – televiziya, radio, qəzetlər və elektron media orqanları ilə həyata keçirilən informasiya fəaliyyəti ilə yanaşı müstəqil olaraq təbliğat və maarifləndirmə xarakterli TV proqramlarının, sujetlərin, çap materiallarının, dövri nəşrlərin hazırlanması üçün maddi texniki bazanın formalaşdırılması | Mütəmadi olaraq |
| **9.** | İctimaiyyətlə əlaqələrdə operativliyin və vətəndaşlarla münasibətlərin səmərəliliyinin artırılması, vətəndaş müraciətlərinin baxılması işinin səmərəli təşkili, əhaliyə göstərilən xidmətlərin effektivliyinin artırılması, daxil olan müraciətlərin çevik qəbul edilməsi və icrasının təmin edilməsi məqsədi ilə Agentliyin Çağrı Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi | Mütəmadi olaraq |
| **10.** | Sağlam qidalanma haqqında maarifləndirici məlumatların mütəmadi şəkildə elektron KİV-də, sosial şəbəkələrdə müxtəlif formalarda ictimaiyyətə təqdim olunması | Mütəmadi olaraq |
| **11.** | Məktəblilər arasında sağlam qidalanmanın təşviqi istiqamətində Agentliyin Regional Bölmələrini cəlb etməklə ölkə ərazisi üzrə ümumtəhsil müəssisələrində maarifləndirici tədbirlərin həyata keçirilməsi | 2019-cu il ərzində |